UOT 355.233

**Aytən İlqar qızı Nağızadə**
Cəmşid Naxçıvanski adına Hərbi liseyin ingilis dili müəllimi
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun adyunktu
https://orcid.org/0009-0006-7387-1212
E-mail : aytanagizada@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).111-116

# HƏRBİ LİSEY KURSANTLARINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ: İSTİQAMƏTLƏR VƏ TƏKLİFLƏR

**Айтан Ильгар гызы Нагизаде**
преподаватель английского языка Военного лицея имени
Джамшида Нахичеванского,
адъюнкт научно-исследовательского института
Военного университета национальной обороны

# ФОРМИРОВАНИЕ И ПРОДВИЖЕНИЕ НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ У КУРСАНТОВ ВОЕННОГО ЛИЦЕЯ: ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ И РЕКОМЕНДАЦИИ

**Aytan Ilgar Naghizadeh**
English language teacher at the Military Lyceum named Jamshid Nakhchivanski
adjunct at the Military Scientific Research Institute of the National Defense University

# PROMOTING NATIONAL-SPIRITUAL VALUES AMONG MILITARY LYCEUM CADETS: DIRECTIONS AND SUGGESTIONS

**Xülasə.** Milli-mənəvi dəyərlər bəşər cəmiyyəti formalaşdığı dövrdən etibarən hər bir xalqın varlığının təməlini təşkil edir. Hərbi lisey kursantlarında bu dəyərlərin təbliği, gələcəyin dəyərlərə sadiq və lider bacarıqlarını tənzimləməyi bacaran hərbçiləri formalaşdrımaq baxımından önəm daşıyan bir prosesdir. Ulu öndər Heydər Əliyevin “Milli-mənəvi dəyərlərimiz bizim milli varlığımızdır” aforizmi bu istiqamətdə önəmli töhfə verir. Məqalədə hərbi liseylərdə milli-mənəvi dəyərlərin təbliği üçün mövcud idarəetmə sisteminin rolundan və bu istiqamətdə təkliflər öz əksini tapmışdır.
***Açar sözlər :*** *şəxsiyyət, dəyər, milli-mənəvi, hərb*

**Аннотация.** Национальные и моральные ценности являются основой существования каждого народа с момента формирования человеческого общества. Продвижение этих ценностей среди курсантов военных лицеев – это значимый процесс, направленный на формирование будущих военнослужащих, преданных ценностям и способных развивать лидерские навыки. Афоризм великого лидера Гейдара Алиева: «Наши национальные и моральные ценности — это наша национальная сущность», вносит важный вклад в этом направлении. В статье подчеркивается роль существующей системы управления в военных лицеях для продвижения национальных и моральных ценностей, а также представлены предложения в этой области.
***Ключевые слова:*** *личность, ценность, национально-нравственный, военный*

**Abstract.** National and moral values have been the foundation of every nation's existence since the formation of human society. The promotion of these values among military lyceum cadets is a significant process for shaping future servicemen who are loyal to values and capable of regulating leadership skills. The aphorism by the great leader Heydar Aliyev, “Our national and moral values are our national existence,” makes an important contribution in this direction. The article highlights the role of the existing management system in military lyceums for promoting national and moral values and presents suggestions in this regard.
***Keywords:*** *personality, value, national-moral, military*

Müasir dövrdə müstəqil dövlətdə güclü və müasir tələblərə cavab verə biləcək ordunun formalaşdırılmasında hərbi təhsilin təşkili müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, cəmiyyətin sosial-iqtisadi münasibətlərinin xarakterindən, elmi-texniki tərəqqidən, hərbi sahənin inkişaf tendensiyasından da asılı olaraq dəyişir. Hərbi təhsil sisteminin təşkili ordunun inkişaf dərəcəsini müəyyən edən strateji amil kimi mühüm rola malikdir. Hərbi təhsil sisteminin idarə olunması, hərbi təhsil sistemi iştirakçılarının hüquq və vəzifələri, hərbi təhsil sahəsində əsas prinsip və normalar xüsusi təyinatlı təhsil müəssisələrinin nizamnamələrinə və "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun tələblərinə əsasən müəyyənləşdirilir. Həmin tələblərə əsasən, hərbi təhsilin milli zəminə və müasir hərbi dəyərlərə, tədris prosesinə əsaslanması, elmi-hərbi-dünyəvi xarakter daşıması, şəxsiyyətyönlülük, fasiləsizlik, çeviklik prinsiplərindən yararlanması günün tələbi kimi çıxış edir. [10] Hərbi təhsil sistemində şəxsiyyətyönlü təşkil dedikdə təhsilalanların idraki, emosional və psixomotor bacarıqları əsasında onlarda milli-mənəvi dəyərlərin formalaşdırılması və həyati bacarıqların aşılanması ilə əlaqəlidir.

Milli-mənəvi dəyərlər bir xalqın tarixini, mədəniyyətini, adət-ənənələrini və dövlətçilik prinsiplərini özündə birləşdirən mənəvi sərvətdir. Bu dəyərlər millətin kimliyini və varlığını qoruyan sütunlar kimi çıxış edir. Hər bir xalqın milli-mənəvi dəyərləri onun həyat tərzini, dünya görüşünü və gələcək nəsillərə ötürdüyü əxlaqi normaları əks etdirir. Bu baxımdan, milli-mənəvi dəyərlər xalqın həm mədəni, həm də siyasi inkişafında əvəzsiz rol oynayır.[ 4, s.14] Hərbi liseylərdə milli-mənəvi dəyərlərin təbliği xüsusilə əhəmiyyətlidir, çünki bu, gələcək hərbçilərin həm peşəkar, həm də şəxsi keyfiyyətlərinin formalaşdırılmasında mühüm rol oynayır. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Milli-mənəvi dəyərlərimiz bizim milli varlığımızdır." [3, s.187] Milli-mənəvi dəyərlər özündə bir neçə əsas elementləri birləşdirir. Buraya daxil olan vətənpərvərlik, dövlətçilik ruhu, milli tarix və mədəni irs, etik dəyərlər və əxlaq hərbi lisey kursantlarının cəlb edildiyi pedaqoji prosesdə formalaşdırılması zəruri olan elementlərdir.

Vətənpərvərlik, vətənə olan sevgi hər bir şəxsin mənəvi dəyərlərinin təməlini təşkil edir. Heydər Əliyev haqlı olaraq vurğulamışdır ki, "Vətən sevgisi ən yüksək hissdir və bunu bütün gənclərə aşılamaq lazımdır."[1 , s.169] Bu məfhum hərbi lisey kursantlarının təlim-tərbiyəsində xüsusi diqqət mərkəzində olmalıdır. Kursantlara vətənə bağlılıq hissi aşılanaraq, onların vətən uğrunda fədakarlıq etməyə hazır olmaları təmin edilməlidir. Hərbi liseylərdə bu keyfiyyətin formalaşdırılması kursantların gələcəkdə sahib olacağı vəzifələri daha şərəflə yerinə yetirmələrinin təməlidir. Bu cəhətdən vətənpərvərlik hisslərinin aşılanması üçün xüsusi metodikalar işlənilməli, vətən sevgisi təkcə fiziki fədakarlığın deyil, həm də psixoloji hazırlığın əsasında formalaşdırılmalıdır. Onlarda fiziki gücün artırılması üçün motivasiya mənbəyi məhz vətənpərvərlik duyğusu olması daha məhsuldar nəticələrin əldə edilməsinə şərait yaradar.

Dövlətçilik, hər bir vətəndaşın dövlətə qarşı məsuliyyətini və bağlılığını ifadə edən dəyərdir. Kursantlar dövlətçilik ruhunda yetişdirilərək, yalnız hərbi xidmətdə deyil, həm də gündəlik həyatlarında dövlət maraqlarını üstün tutmağa təşviq edilməlidirlər. Dövlətçilik anlayışının düzgün şəkildə təbliği gənc nəslin dövlətə sədaqətli olması üçün əsas şərtlərdəndir. Müasir dövrün kompetensiyalarından olan milli kimliyin dərki və milli iftixar hisslərinin formalaşdırılması dövlət rəmzlərini tanımaqdan başlayaraq azərbaycançılıq ideyalarının formalaşdırılmasına, həmçinin təbliğinə qədər bir sıra keyfiyyətlərin birləşimindən ibarətdir. Kursantların hərbi mütəxəssis kimi formalaşdırılması prosesi öncə onların fəal vətəndaş mövqeyinin aşılanması ilə başlayaraq, dövlət ənənlərinə sədaqət və dövlət maraqlarının müdafiəsinə qədər olan mürəkkəb bir yolu keçir. Bu sahədə tarix dərslərinin bir sıra ünsürləri, habelə vətəndaşlıq təhsilinin əvəzsiz rolu vardır. Kursantlara milli tariximizin və mədəniyyətimizin dərindən öyrədilməsi onların vətənə bağlılığını artırır. Tarixi şəxsiyyətlərimizin qəhrəmanlıq nümunələri, milli qəhrəmanlarımızın həyat və fəaliyyəti kursantların milli qürur hissini formalaşdırmaqda mühüm vasitədir. Mədəni irsin qorunması və nəsildən-nəslə ötürülməsi bu baxımdan vacibdir.

Əxlaqi normalar cəmiyyətin sağlam şəkildə formalaşması üçün zəruri olan dəyərlərdir. Hərbi lisey kursantlarına yüksək etik prinsiplər, dürüstlük, məsuliyyət və ədalət hissi aşılanmalıdır. Onlara həm peşəkar, həm də şəxsi həyatlarında bu prinsiplərə əməl etmək öyrədilməlidir. Bu

prinsiplərlə aşılanan hərbi lisey kursantları gələcəkdə həm vətənpərvər və məsuliyyətli zabitlər, həm də yüksək əxlaqi dəyərlərə malik vətəndaşlar kimi formalaşa bilərlər. Belə təlim-tərbiyə sisteminin yaradılması milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsində əvəzsiz rol oynayacaq.

Azərbaycanda hərbi liseylərdə milli-mənəvi dəyərlərin təbliği genişmiqyaslı və çoxşaxəli tədbirlər, tədris proqramları və xüsusi tərbiyə prosesləri vasitəsilə həyata keçirilir. Bu istiqamətdə məqsəd, gənc kursantlarda vətənpərvərlik, milli şüur və əxlaqi prinsipləri formalaşdırmaqla onları həm peşəkar hərbiçi, həm də dəyərlərə sadiq vətəndaşlar kimi yetişdirməkdir. [ 5, s.145]

Hərbi kursantlarda milli- mənəvi dəyərlərin formalaşdırılması bir sıra tədbirlərin təşkili zərurətinə səbəb olur. Həmin tədbirlər cədvəl 1.-də öz əksini tapmışdır.




*Cədvəl 1. Hərbi kursantlarda milli-mənəvi dəyərlərin formalaşdırılmasına xidmət edən tədbirlər*

**Tədris proqramlarının milli ideologiya ilə zənginləşdirilməsi.** Tədris proqramlarında milli tarix, mədəniyyət və milli qəhrəmanların həyatına dair dərslərinin yer alması xüsusi önəm daşıyır. Bu gün hərbi liseylərin kurikulumlarına nəzər salsaq Azərbaycan xalqının qəhrəmanlıq tarixi, Qarabağ müharibəsi şəhidlərinin nümunələri və Heydər Əliyevin dövlətçilik prinsipləri kursantlara dərindən öyrədilir deyə bilərik. Ruhun tərbiyəsində əvəzsiz rolu olan ədəbiyyat dərslərində milli poeziya və nəsrdə vətənpərvərlik mövzularına üstünlük verilir. [6,s.76]

**Vətənpərvərlik və dövlətçilik ruhu aşılayan tədbirlər** kursantların fəaliyyətlərini vəzifə öhdəliyindən əlavə vətəndaş öhdəliyi kimi görmələrinə zəmin yaradır. Dövlət bayramlarının, şəhidlərin anım günlərinin və tarixi hadisələrin qeyd edilməsi, dövlət atributlarına- bayrağa, himnə və gerbə hörmətin artırılması məqsədi ilə xüsusi təlimlərin və tədbirlərin təşkili, şəhidlik zirvəsinə yüksəlmiş hərbçilərin həyatlarına və onların göstərdikləri şücaətlərə həsr edilmiş seminarlar kursantlarda milli qürur hissini gücləndirir.

Hərbi lisey kursantları üçün təşkil edilmiş motivasiyaedici görüşlər **tərbiyəvi və ictimai təlimlərə** daxildir. Belə görüşlərdə hərbi liderlər, qazilər və ictimai xadimlərin iştirakı və öz təcrübələrini bölüşməsi, vətənə xidmətin əhəmiyyətini onlara aşılanmış vətənpərvərlik duyğularını daha da artırmağa təkan vermiş olur. Tərbiyəvi işlər yalnız bu görüşlərlə məhdudlaşmayır. Tarixi məkanlara, həmçinin Şəhidlər Xiyabanına, Heydər Əliyev Mərkəzinə, Qarabağ müharibəsinə həsr edilmiş memorial komplekslərə ekskursiyalara aparılması mənəvi dəyərlərin əxlaq

kodeksi ilə əlaqələndirməni, habelə etik davranış normalarının mənimsədilməsini təmin edir.

Ulu öndərin "Gənclər bizim gələcəyimizdir" [1,s.168] prinsipi hərbi liseylərin ideologiyasının təməl daşıdır. Onun milli-mənəvi dəyərlərə dair fikirləri xüsusi dərslərdə və tədbirlərdə müzakirəsi təşkil edilir. **Heydər Əliyevin ideyalarının təbliği k**ursantlarda liderlik keyfiyyətlərinin artırılmasına da zəmin yaradır. Belə ki onun dövlət idarəetməsi liderlik tərbiyəsində bariz nümunədir. Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsi, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Milli-mənəvi dəyərlərinə sahib çıxmayan xalq məhvə məhkumdur. Onları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" – deyən Heydər Əliyev azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. [3, s.186 ]

Milli-mənəvi dəyərlərin təbliği onlara **psixoloji yanaşm**anın formalaşması dərəcəsindən asılıdır. Milli-mənəvi dəyərlərin psixoloji aspektlərini mənimsəmiş kursantlar bu dəyərlərin praktik icrasını da mənimsəmiş olurlar. Psixoloji yanaşmanın möhkəmləndirilməsi xüsusi treninqlər vasitəsilə həyata keçirilir. Belə ki, bu treninqlər vasitəsi ilə kursantlarda həm fərdi, həm də kollektiv daxilində dəyərlərin tətbiqi müşahidə edilir.

**Hərbi intizam və dəyərlərin birliyi.** Hərbi intizam milli-mənəvi dəyərlərlə sıx əlaqələndirilir. Kursantların davranış normaları yalnız hərbi qaydalarla deyil, həmçinin milli əxlaq kodeksi ilə tənzimlənir. Kursantlar arasında dəyərlərə dayanan dostluq, birlik və qarşılıqlı hörmət mühiti yaradılır.

**Ailə və cəmiyyətlə əlaqələrin gücləndirilməsi.** Təhsil üçbücağının əsas tərəflərindən biri olan ailə dəyərlərin formalaşdırıldığı ilk mühitdir. Bu mühit milli-mənəvi dəyərlərə sadiq qalması müasirlik və millilik kodeksinin birləşdirilməsi, dəyərlərin unudulmaması və gələcək nəslə ötürülməsində böyük rola sahibdir. Ailə ilə əlaqələrin gücləndirilməsi üçün təşkil edilən valideyn iclaslarında bu məsələlərin müzakirəsi təxirə salınmamalı, kursantların davranış normalarını mənimsəmələrində dəyərlərin əhəmiyyəti onlara da aydın olmaldır.

Milli ruhun hərbi təhsilə inteqrasiyası üçün milli-mənəvi dəyərlərin təbliğində müasir texnologiyaların da tətbiqinə geniş yer vermək gərəkir. Virtual resurs hesab edilən filmlər, interaktiv oyunlar, multimedianın tətbiq edildiyi dərslər kursantların marağını daha artıra, onların təlim fəaliyyətini stimullaşdıra bilər. Milli qəhrəmanların həyatına həsr edilən sənədli filmlərin hazırlanması, onların nümayiş etdirilməsi və müxtəlif fənlərin tədrisində istifadə edilməsi kursantların təliminə əlavə töhfə vermiş olar. Bu tədbirlər və istiqamətlər hərbi lisey kursantlarında milli dəyərlərin qavranılmasını, onların bu dəyərlərə bağlılığını və bu prinsipləri gələcək həyatlarında tətbiq etmələrini təmin edir.

Milli-mənəvi dəyərlərin formalaşdırılmasının daha da müasirləşdirilməsi üçün bu sahədə bir sıra innovativ yanaşmaları tələb edir. Həmin yanaşmalardan bir neçəsini təklif qismində tədqiq edək.

- Rəqəmsal texnologiyaların tətbiqi;
- Milli dəyərlər akademiyası;
- Milli StartUp yarışları;
- Milli dəyərlər teatrı;
- Gənc qəhrəmanlar forumu;
- Vətənə xidmət həftəsi;
- Milli-mənəvi araşdırma mərkəzi;
- Milli irs məhəlləsi

Bu yanaşmalar hər biri müxtəlif ölkələrdə təcrübədən keçirilmiş və uzunmüddətli layihələri əhatə edən tədbirlər sırasında yer almışdır.

**Rəqəmsal texnologiyaların tətbiqi.** Qloballaşma dövründə texnologiyanın inkişafı hərb sənayesinə təsirsiz ötüşməyir. Texniki vəsaitlərin istifadəsi təhsildə daha səmərəli öyrənmə mühitinin formalaşdırılmasına təsir edir. Milli-mənəvi dəyərlərin təbliğində rəqəmsal texnologiyaların imkanlarından istifadə hərbi kursantlarda daha böyük maraq formalaşdıra bilər. Mobil tətbiqlər və Virtual Reallıq (VR) buraya nümunə ola bilər.

Mobil tətbiqlər. Milli dəyərləri, qəhrəmanlarımızı və tarixi hadisələri tanıtmaq üçün interaktiv oyunlar, viktorinalar, hətta "augumented reality" (AR) ilə zənginləşdirilmiş tətbiqlər yaradıla bilər.

Virtual Reallıq (VR). Şagirdlər Qarabağ döyüşlərinin tarixi yerlərinə "virtual səyahət" edərək o mühitlərdə özlərini hiss edə bilələr. Bu həm maraqlı, həm də öyrədici ola bilər. Nümunə olaraq Türkiyədə "Çanakkale Savaşları VR Simulyasiyası" hazırlanıb. Təhsilalanlar bu texnologiya vasitəsilə Çanakkale döyüşlərini interaktiv formada öyrənir. Başqa bir nümunə Cənubi Koreyada tarix dərsləri üçün VR texnologiyası tətbiq edilir. Kursantlar Koreya Müharibəsi və digər tarixi hadisələri müasir texnologiyalar vasitəsi ilə hətta hiss edə bilirlər. [ 7]

**Milli dəyərlər akademiyası .** Bu lisey daxilində müntəzəm şəkildə fəaliyyət göstərən platformadır. Belə platformalarda tarix dərslərindən əlavə xüsusi təlimlər və seminarların təşkili nəzərdə tutulur. Təlim və seminarlar vasitəsi ilə kursantlarda liderlik, komanda işi və milli irs haqqında biliklər daha da dərinləşir, onların fəaliyyətləri layihələr, praktik məşğələlər və tədqiqatlar formasında olduğu üçün biliklər səviyyəsində qalmayaraq bacarıqların və kompotensiyaların formalaşdırılmasına zəmin yaradır. Nümunə olaraq Sinqapur və Finlandiya modellərini göstərə bilərik. Sinqapurda "Liderlik Akademiyaları" yalnız hərbi liseylərdə deyil, həmçinin məktəblərdə də təhsilalanların milli irsi və mədəniyyəti daha yaxşı başa düşməsini təmin etmək üçün yaradılıb. Finlandiyanın bu istiqamətdə fəaliyyət göstərən "Həyat Bacarıqları Akademiyaları" gənclərə liderlik, əməkdaşlıq və vətəndaşlıq bilikləri öyrətməklə məşğuldur.[ 8 ]

**Milli StartUp yarışmaları.** Bu yarışmalar həm lokal, həm də regional şəkildə tətbiq edilə bilər. Burada kursantlar milli dəyərləri texnologiya və innovasiya ilə birləşdirərək kreativ həllər hazırlayırlar. Hətta bu yarışmalar vasitəsi ilə hərbi sənaye, hərbi tibb sahələri də inkişaf etdirilir. Yarışmada fərqlənənlər üçün mükafatlandırma sistemi tətbiq olunur. Layihələr milli tarix, mədəniyyət, qəhrəmanlıq, musiqi və ya tarixi abidələrin qorunması ilə bağlı ola bilər. Belə layihələrin tətbiq edildiyi bir sıra ölkələr var. Məsələn Hindistanda "India Innovation Challenge" milli miras və tarixlə bağlı innovativ layihələri dəstəkləyir. Polşada "Heritage Hackathon" adlı proqram tələbələrə milli irs və tarixi binaların qorunması üçün texnoloji həllər hazırlamağa şərait yaradır. [ 9]

**Milli dəyərlər teatrı.** Belə teatrlarda təhsilalanlar milli qəhrəmanlar, tarixi hadisələr və vətənpərvərlik mövzularında teatr tamaşaları hazırlayır. Bu həm yaradıcılığı artırır, həm də tarix və milli dəyərləri dərindən mənimsəməyə imkan yaradır. Rusiyanın məktəblərində "Patriot Teatrları" yaradılıb. [9] Tarixi hadisələrin səhnələşdirilməsinə təhsilin bütün səviyyələrində təhsilalanlar cəlb edilir. "Living History Projects" proqramı tələbələrə Amerikanın milli qəhrəmanlarını və tarixi hadisələrini canlandırmağa imkan verir. [ 2, s.7]

**Gənc qəhrəmanlar forumu.** Belə forumlarda kursantlar istədikləri milli qəhrəmanları seçib onların həyatını təqdim edir və forum şəklində müzakirələr aparılır. Forum təhsilalanlara həm öz araşdırmalarını bölüşməyə, həm də milli irs barədə daha dərin biliklər əldə etməyə imkan yaradır. Kanadada "National Heroes Forum" təhsilalanların tarixi şəxsiyyətlər haqqında araşdırma aparması üçün keçirilir. Türkiyədə "Milli Kahramanlar Paneli" təşkil olunur. Bu, tələbələrin Mustafa Kamal Atatürk və digər milli qəhrəmanlar haqqında məlumatlarını dərinləşdirir. [ 8]

**Vətənə xidmət həftəsi.** Belə həftələrin təşkili kursantlara xüsusi fəaliyyətin təşkili ilə şərtlənir. Bu fəaliyyətlərə yaşlılara kömək, tarixi abidələrin tanıdılması, milli bayramlara, əlamətdar günlərə həsr edilən təqdimatların hazırlanması daxildir. Avstraliyada yaradılan "Community Service Week" təhsilalanlara yerli icmalarda iştirak etməklə milli və vətəndaş dəyərlərini təbliğ etməyə imkan yaradır. İsraildə "Heritage Week" adlı proqramda cəlb edilmiş kursantlar milli mirası qorumaq üçün müxtəlif layihələrdə iştirak edirlər. [10]

**Milli-mənəvi araşdırma mərkəzi .** Hərbi lisey daxilində milli tarix və mədəniyyət haqqında araşdırmalar aparmaq üçün xüsusi bir mərkəz yaradılır. Burada kursantlar tarixi hadisələri analiz edir, milli qəhrəmanlar haqqında layihələr hazırlayır, həmçinin milli irsin müasir dövrdəki əhəmiyyətini tədqiq edirlər. Belə model əsasında Almaniyanın "Youth Heritage Centers" mərkəzi gənclərə milli irs mövzusunda tədqiqat aparmaq imkanı yaradır. İtaliyada "Historical Research Labs" tarixi abidələrin qorunması və öyrənilməsi üçün yaradılmışdır. Bu mərkəzə həm ekskursiya, həm də praktik fəaliyyətin təşkili mümkündür. [ 9 ]

**Milli irs məhəlləsi.** Lisey ərazisində tələbələr öz əlləri ilə milli qəhrəmanların barelyefləri, tarixi hadisələri əks etdirən kompozisiyalar

və milli mədəniyyət nümunələri ilə zənginləşdirilmiş bir məkan yaradır. Bu məkan həm təlim, həm də mədəni dəyər daşıyır. Yaponiyada təhsil müəssisələri "Mədəniyyət Məhəlləsi" layihəsi ilə milli irsi yaşadır. Belə layihələrə bütün təhsil müəssisələri cəlb edilir. Fransanın təhsil müəssisələrində "Milli İrs Kəndləri" layihəsi ilə şagirdlər tarixi məkanların miniatürlərini yaradılır. Vizualizasiya təhsilalanlarda daha dərin təəssüratların formalaşdırılmasına imkan yaradır. [8]

Milli-mənəvi dəyərləri gənclərə daha yaxşı təbliğ etmək üçün, Azərbaycan kontekstində inteqrativ bir yanaşma tətbiq olunmalıdır. Bütün hərbi liseylər daxilində milli tariximizi, mədəni irsimizi və dəyərlərimizi bütünlükdə və yaradıcı formada birləşdirən proqramlar yaradılmalıdır. Bu proqramlar texnologiya, yarışmalar, teatr, forumlar və liderlik akademiyaları kimi fərqli istiqamətləri özündə ehtiva etməlidir.

**Problemin aktuallığı.** Dünya xalqlarının inkişaf və təkamül prosesinin əsasında dövlətçilik ənənələri ilə bərabər milli-mənəvi dəyərlər sistemi dayanır. Özünün zəngin milli-mənəvi irsi ilə xalqımız dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, əxlaq aləmində xarakteristik mövqe nümayiş etdirmişdir. Müasir dövlətimizin siyasi baxışında gənclərin bu irsə bağlı, qlobal tolerantlıq əsasında tərbiyəsi diqqət mərkəzindədir. Prezident İlham Əliyev ulu öndərimiz Heydər Əliyevin özündən sonra əmanət qoyduğu azərbaycançılıq ideologiyasını yaşadır və gənclərin milli-mənəvi tərbiyəsinə xüsusi qayğı göstərir. Milli-mənəvi dəyərlər mövzusunda bir çox dəyərli pedaqoqlar, tədqiqatçılar, filosoflar, sosioloqlar, psixoloqlar öz nöqteyi-nəzərlərini bildirmiş və bu sahədə çoxsaylı tədqiqatlar aparılmışdır. Hərbi təhsil sahəsində milli-mənəvi dəyərlərin aşılanmasına müxtəlif mövqelər nümayiş etdirilsə də, sistemli tədqiqat aparılmamışdır. Bu da öz növbəsində mövzunun aktuallığını artırır.

**Problemin elmi yeniliyi.** Elm sahəsi daimi zənginləşən dəyərlər əsasında inkişaf edir. Cəmiyyətdə formalaşan dəyərlər həmin cəmiyyətin inkişafı, dayanıqlığı üçün zəmin yaradır. Milli dəyərini itirmiş xalqda əzm, müstəqillik təfəkkürü, sədaqət və əxlaq kodeksi zamanla itər və keçmişini unudan, soyundan ayrılmış bir kökən yaranar. Hərb sahəsində yetişdirilən mütəxəssislər xalqlını və onun dəyərlərini sevməz, bu dəyərlərə sahiblənib onu yaşatmazsa onlarda sədaqət və əzm duyğusu da azalar, zamanla yalnız qərar vermə bacarığına sahib "robotlaşmış" müdafiə formalaşar. Qarabağın geri qaytarılmasında canından keçən gənclik məhz dəyərlərin unudulmadığı təhsilin bəhrəsi idi. Müstəqillik və suverenliyin daimi yaşadılması üçün hərbi sahəsində məhz bünövrədən – lisey təhsilindən başlayaraq bu dəyərlərin qorunması üçün sistemli fəaliyyət planı lazımdır. Məqalədə ilk dəfə bu fəaliyyət üçün dünya təhsil təcrübəsinə dayanan tədbirlərin təşkili təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Milli-mənəvi dəyərlər bir çox elm sahəsinin tədqiqat obyektinə çevrilmiş bir problemdir. Hərb sahəsində və milli-mənəvi dəyərlərlə əlaqəli araşdırma aparan təhsil işçiləri, müəllimlər, hərbçilər, magistrantlar, doktorantlar, adyunktlar, habelə bu sahəyə maraqlı tədqiqatçılar məqalənin təklif və nəticələrindən bəhrələnə bilərlər.

**Ədəbiyyat:**


1. Azərbaycançılıq ideyasının inkişaf tarixi və ulu öndər Heydər Əliyev tərəfindən milli ideologiya kimi formalaşdırılması / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 1-4 may 2013. s. 168-170
2. Abbasov Ə. İnkişaf etmiş xarici ölkələrdə təhsil. -Bakı: "Elm və təhsil", -2020. -108 s.
3. Əkbərov Q. Heydər Əliyev və milli-mənəvi dəyərlər sistemində Azərbaycançılıq ideologiyası // Tarix və onun problemləri, -2013., № 4, -s. 186-189
4. Əliyev P. Əhmədov H. "Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi". -Bakı: Təhsil, 2006. -264 s.
5. Təhməzov Ə. Heydər Əliyev və ordu quruculuğu. -Bakı: Adiloğlu, -2006. -480 s.
6. Milli-mənəvi dəyərlərə tarixi baxış // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, -2012. № 3, -s. 74- 78
7. Christopher P. M. Jones"The Military-Industrial Complex and the Education of Soldiers". Routledge. 2019.
8. Michael A. Smith"Comparative Analysis of Military Education Systems" .-Palgrave Macmillan. -2020
9. "The Role of Military Education in Modern Defense Strategy". Heather M. Chalmers. -Oxford University Press.-2018
10. https://mod.gov.az/az/pre/36864.html
11. https://mod.gov.az/images/pdf/87c0a9f9b43f470ea8659f4f8938da89.pdf?utm_source


**Redaksiyaya daxil olub:** 21.01.2025